**AZƏRBAYCAN RESPUBLİKASI**
**NAXÇIVAN MUXTAR RESPUBLİKASI**
**NAZİRLƏR KABİNETİ**

# Q Ə R A R

**Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin kollegiyasının tərkibinin təsdiq edilməsi haqqında**

Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin 2020-ci il 17 aprel tarixli 7-VI FR nömrəli Fərmanı ilə təsdiq edilmiş "Naxçıvan Muxtar Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi haqqında Əsasnamə"nin 5.9-cu bəndinə əsasən, Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin müraciətini nəzərə alaraq Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin kollegiya üzvlərinin sayı 7 nəfərdən ibarət müəyyənləşdirilsin və aşağıdakı tərkibdə təsdiq edilsin:

**Kollegiyanın sədri**

Naxçıvan Muxtar Respublikasının ekologiya və təbii sərvətlər naziri

**Kollegiyanın üzvləri:**

Naxçıvan Muxtar Respublikası ekologiya və təbii sərvətlər nazirinin müavini

Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyi Aparatının rəhbəri

Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyi Aparatının Daxili nəzarət və audit işinin təşkili, ətraf mühitdən istifadəyə və ekoloji ekspertizanın aparılmasına nəzarət şöbəsinin müdiri

Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyi Aparatının Ətraf mühitin tənzimlənməsi və təbii sərvətlərdən istifadənin təşkili şöbəsinin müdiri

Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyi yanında Ekoloji Ekspertiza, Ətraf Mühitə və Təbii Sərvətlərdən İstifadəyə Nəzarət Xidmətinin rəisi

Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Meşələrin İnkişafı və Biomüxtəlifliyin Qorunması İdarəsinin rəisi.

2. "Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin kollegiyasının yeni tərkibinin təsdiq edilməsi haqqında" Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2009-cu il 9 sentyabr tarixli 64 nömrəli Qərarı ləğv edilsin.

3. Bu Qərar imzalandığı gündən qüvvəyə minir.

**Naxçıvan Muxtar Respublikasının**
**Baş naziri** **Səbuhi Məmmədov**

Naxçıvan şəhəri, " 28 " fevral 2024-cü il

№ 20